# İnklüziv Təhsil üzrə açıq sənəd

## Məktəb rəhbərləri və təhsil menecerləri üçün vəsait

**UNESCO**

* Bu vəsait Avropa İttifaqının maliyyə dəstəyi ilə “Regional İnkişaf” İctimai Birliyi tərəfindən icra olunan “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi çərçivəsində tərcümə edilmişdir.

# MƏKTƏBLƏRDƏ DƏYİŞİKLİYİN TƏŞVİQ OLUNMASI VƏ DAYANIQLIĞI

## ƏSAS MƏSƏLƏLƏR

- İnklüziv təhsilin inkişafı yalnız o zaman mümkündür ki, məktəblər özləri daha inklüziv olmaq öhdəliyini öz üzərilərinə götürsünlər. Məktəblərin inklüziv layihələrə cəlb olunması milli siyasətin real təcrübəyə çevrilməsinin ən sürətli yoludur.
- Layihələr məktəblərin öz təşəbbüsləri və ya məktəblərin də tərəfdaş olduğu ortaq təşəbbüslər ola bilər.
- Layihələrin icra mexanizmi bir-birindən fərqlənsə də onların uğurlu olması bəzi amillərlər şərtlənir ki, bunlar vəzifə öhdəliklərinin dəqiq müəyyənləşdirilməsi, məktəblərin effektiv surətdə dəstəklənməsi, təcrübənin təkmilləşdirilməsi mexanizmi və yayılması prosesidir. Lakin layihələr nəticə etibarilə qeyri-ideal şəraitdə başlamalıdır.
- Layihələrdə məktəblərə mədəniyyət və təcrübələrini dəyişməyə kömək edən strategiyalara ehtiyac duyulur. Bura müəllimlərin təcrübələrini sınaqdan keçirməsinə və onların məsələlərin həllinə cəlb olunmasına şərait yaradılması daxildir.
- Məktəb şəbəkələri və əməkdaşlıqlar məktəbə dəstəyin təmin edilməsi vasitələridir. Bura xüsusi və ümumtəhsil müəssisələri arasında əməkdaşlıq daxildir.
- Layihələr artıq dərəcədə fərdiləşdirilmiş yanaşmalar və ya xarici mütəxəssislərdən asılılıq kimi səhvlərdən yayınmalıdır.

## MƏNTİQİ ƏSASLANDIRMA

İnklüziv təhsil sisteminin daha geniş tətbiqi yalnız mətkəblərin bu sistemə keçidi öhdəlik kimi üzərilərinə götürmələrindən asılıdır. İnklüziv təhsil üçün milli siyasətin inkişafı, yerli dəstək sistemləri, tədris proqramı və qiymətləndirmənin uyğun formasının seçilməsi və s. vacib mexanizmlərdir. Əgər məktəbdə inklüziv təhsilə müsbət yanaşma olmasa, bütün bu sadalananlar ya uğursuzluqla nəticələnəcək, ya da effektiv inklüziv təhsil təcrübələrini inkişaf etdirmək mümkün olmayacaq. Digər tərəfdən, bir çox məktəblərdə rəsmi olaraq inklüziv təhsilə keçid öhdəliyini götürməmişdən öncə də belə təhsil təcrübələrinin olduğu hallar da mövcuddur. Bu hallarda sözügedən məktəblər bütöv sistemin inkişafı üçün mühərrik rolunu oynaya bilər.

Çox az məktəb inklüziv metodla *prinsip* olaraq razılaşmır. Bununla bərabər, bir çox məktəbin inklüziv təhsil *təcrübəsinin* tətbiqi ilə bağlı tərəddüdləri mövcuddur və bəziləri özlərinə lazımi dəstəyi tapa bilməməkdən ehtiyat edirlər. Buna görə də rəhbərlər və qərarverən şəxslər üçün əsas məsələ, təcrübələrini inkişaf etdirmək, yaşadıqları çətinliklərin öhdəsindən gəlmək və daha effektiv inklüziv tətbiqetməni təmin etmək üçün məktəblərlə necə işləməkdir. Aşağıdakı hissədə bu məsələlərdən danışılacaq.

## STRATEGİYA NÜMUNƏLƏRİ

### 1. Məktəblərin seçilməsi

İnklüziv təhsilin təbliği ilə bağlı ən geniş yayılmış strategiya bir və ya daha çox məktəbdə inklüziv təcrübəni inkişaf etdirmək üçün dəstəkləyici "layihə"lərin başladılmasıdır. Rəhbərlər və qərarvericilər üçün əsas məsələ hansı məktəblərin bu layihələrə cəlb olunmasıdır. Bu sual iki əsas hissədən ibarətdir:

- Bu layihələr yuxarıdan (məsələn; milli və ya yerli idarəetmə səviyyəsində) yoxsa aşağıdan (məktəb səviyyəsi) başladılmalıdır?
- Bu məktəblər nə vaxt həmin layihələrə cəlb edilməlidir, seçilmiş məktəblər "ən yaxşı" (yəni artıq pro-inklüziv olan, ya da özünün sahib olduğu mövcud quruluşda ən effektiv təhsil verən məktəblərdən hesab olunanlar), yoxsa "ən pis" (daha çox inkişafa ehtiyacı olan) məktəblər olmalıdır?

Beynəlxalq təcrübədə bu sualların vahid cavabı yoxdur. Məktəb səviyyəsində dəyişikliyi bir neçə yolla başlamaq olar:

#### *1.1.Məktəb əsaslı təşəbbüslər*

Məktəb əsaslı yanaşmalar məktəblərin təşəbbüsləri üzərində qurulur. Belə yanaşmaların uğurlu olması üçün bir sıra şərtlər təmin olunmalıdır:

- yeniliyə icazə verilən və mümkün olduğu hallarda təşviq edilən milli və/yaxud yerli kontekst olmalıdır
- bu cür təşəbbüslərə sistemin yuxarı səviyyələrində maneə ilə qarşılaşdıqda belə praktiki dəstək verilməlidir
- innovativ məktəblər tərəfindən öyrənilən təcrübənin digər məktəblərə də yayılması və bu məktəblərin də növbə ilə daha inklüziv olması üçün təşviq edilməlidir
- innovativ məktəblər tərəfindən inkişaf etdirilən təcrübənin daha geniş yayılması üçün strukturların və lazımi hallarda qanunvericiliyin də bu təcrübəyə uyğunlaşdırılması lazımdır

### *1.2.Sistem əsaslı təşəbbüslər*

“Hamı üçün təhsil” hədəfi hökümətlərə sistem səviyyəsində dəyişiklik etmək üçün fürsət verir. Bəzi ölkələrdə daha çox inklüzivliyə nail olmaq təhsilin keyfiyyətini artırmaq üçün irəli sürülən təşəbbüslərin tərkib hissəsidir. Bu təşəbbüslər xüsusi gündəliklər vasitəsilə hökumət səviyyəsindən məktəb səviyyəsinə yönləndirilir.

Bu hallarda, əsas məsələ məktəblərdə yaranan təşəbbüsləri necə inkişaf etdirmək deyil, məktəbləri milli səviyyədə qəbul edilən təşəbbüslərə tam olaraq necə uyğunlaşdırmaqdır. Portuqaliya təcrübəsi bu məsələdə faydalı nümunə ola bilər:

✓ İnklüziv Məktəblər layihəsi Portuqaliyada iki tədris ilində (1996-1998) həyata keçirilən və YUNESKO-nun Müəllim Təhsili üzrə “Sinifdə Xüsusi Ehtiyaclar” adlı Resurs Dəstinə əsaslanan müəllim hazırlığı layihəsi idi. Milli səviyyədə İnklüziv Təhsil layihəsinin əlaqələndiriciləri Təhsil İnnovasiya İnstitutundan (TİI: *Instituto de Inovação Educacional* ) iki təcrübəli şəxs idi. Niyyəti "hamı üçün keyfiyyətli təhsil yaratmaq məqsədi ilə yenilikləri təşviq etmək, dəstəkləmək, yaymaq və öyrənmək" olan TİI Təhsil Nazirliyinin bir şöbəsidir.

Bu innovativ layihənin xarakterik xüsusiyyətlərindən biri də TİI ilə Portuqaliyanın fərqli bölgələrindən müəllim hazırlayan beş kollec arasında əlaqələrin qurulması və bu əlaqələri koordinasiya etmək üçün beş yerli “fəaliyyət qrupu”nun yaradılması idi. Hər bir yerli komanda Yerli Təhsil İdarəsi (Direccao Regional de Educacao) tərəfindən təyin olunmuş bir nəfər və kollecdən bir koordinator daxil olmaqla beş üzvdən ibarətdir olur. Bu layihənin quruluşu müəllim hazırlığı aparan kelleclərə məktəblərlə yaxından işləmək və inklüziv təcrübəni yaymaq üçün regional mərkəz kimi çıxış etmək imkanı verir.

Bu nümunə milli siyasətin tətbiqində bəzi vacib elementləri özündə əks etdirir:

- İcra prosesi tamamilə müvafiq dövlət departamenti və ya agentliyinin ixtiyarındadır. Bu yolla, hökumət siyasətin formalaşmasında və məktəblər tərəfindən tətbiqində körpü rolunu oynayır.
- Məktəblər üçün dəstək şəbəkəsi yaradılır. Hökumət məktəblərlə davamlı işləyə bilən qurumları (bu halda, müəllim hazırlığı aparan təhsil müəssisələri) işə cəlb edir.
- Yerli idarəetmə və məktəblər özləri layihənin idarəetməsinə cəlb olunur. Bu da yerli idarəetməni gücləndirən elementlərdən biridir.
- Məktəblərdə təcrübənin inkişafına dəstək olmaq üçün aydın bir mexanizm mövcuddur. Haqqında danışdığımız təcrübədə bu, YUNESKO Dəstidir, lakin bu heç də həmişə uyğun və lazımlı olmaya bilər. Əsas məsələ oldur ki, inklüziv təhsil məktəblərin özlərinin bildiyi qaydada tətbiq etməli olduğu ümumi prinsip hesab edilmir.
- Bu layihənin nəticələrinin yayılması üçün də aydın bir mexanizm mövcuddur.

Adətən layihələr Cənubi Amerika nümunəsində olduğu kimi, milli və ya yerli idarəetmə qurumları və xarici təşkilatlar arasında birgə əməkdaşlıq çərçivəsində həyata keçiriləcəkdir:

✓ “Peru, Boliviya və Ekvadorda əlilliyi olan uşaqların məktəblərə inteqrasiyası” layihəsi DANİDA-nın sponsorluğu və YUNESKO Santyaqonun texniki dəstəyi ilə hazırlanmışdır. Bu, YUNESKO-nun "Hər kəs üçün təhsilə doğru" adlı digər bir layihəsi çərçivəsində qurulmuşdur. Bu layihənin məqsədi xüsusi ehtiyaclar mövzusunda təlim və planlaşdırma seminarları, texniki dəstək və ixtisaslaşmış bilik mübadiləsi yolu ilə "xüsusilə bu aspektdə az inkişaf etmiş ölkələrdə ibtidai təhsilə ümumbəşəri çıxışın təmin edilməsi" olmaqla yanaşı "xüsusi ehtiyacları olan uşaqların ümumtəhsil məktəblərinə cəlb olunmasını" təşviq edir. Bu, YUNESKO Santyaqo tərəfindən təbliğ olunan digər regional təşəbbüslər, məsələn, "Sinifdəki xüsusi ehtiyaclar" müəllim hazırlığı proqramı ilə əlaqədardır.

Layihə iki mərhələdə hazırlanmışdır: birinci mərhələ 1993-cü ildə Peruda milli layihə olaraq başlamışdır. İkinci mərhələ isə Peru təcrübəsini də özündə birləşdirirərək 1996-2000-ci illərdə Ekvador və Boliviyada genişləndirilmiş və möhkəmləndirilmişdir. Burada məqsəd müəllimlərin sinfə yanaşmasını dəyişmək, ənənəvi yanaşmadan hər şagirdin fərdi ehtiyacına yönələn yanaşmaya keçmək, müvafiq resurslardan istifadənin təşviq etmək, inklüzivliyi artıran amillərin analiz edilmək və ölkədə bu təcrübənin digər icmalara da yayılmasına çalışmaq idi.

Birinci mərhələ, bütün maraqlı tərəflərlə məlumatlandırma və maarifləndirmə kampaniyaları ilə birlikdə seçilmiş məktəblərdə sağlamlıq imkanları məhdud şagirdlərin təhsil alması ilə bağlı pilot layihənin hazırlanmasını tələb etdi. Bu mərhələ müəllim hazırlığı, sinif müəllimi üçün mütəxəssis dəstəyi və Perunun dörd

bölgəsində (Lima/Callao, Ica, Cajamarca və Arequipa) layihə üçün seçilmiş sinif otaqları materiallar və avadanlıqlarla təchizindən ibarətdir. Siniflər Təhsil Nazirliyinin nəzdində "İbtidai və Xüsusi Təhsil üzrə Baş İdarə"nin köməyi ilə seçilmişdir.

İkinci mərhələ Peru təcrübəsinin möhkəmləndirilməsinə və bu təcrübənin Ekvador və Boliviyada yayılmasına yönəlmişdir. Buraya müəllim hazırlığı, sinif müəllimlərinə xüsusi dəstək, müəllim nəzarəti və seçilmiş sinif otaqları üçün materialların paylanması kimi fəaliyyətlər daxildir. Hər iki ölkədə bir xüsusi və iki adi məktəb də daxil olmaqla bütün icmaya yönəlmiş kiçik miqyaslı pilot layihə mövcuddur.

Bu nümunədən görünən əsas amillər aşağıdakılardır:

- Burada mərhələlərin aydın növbəlilik prinsipi var. Yəni, məktəblərin inklüziv olması üçün daha hazırlıqlı və adekvat dəstəyi almış olması gözlənilmir. Eyni zamanda, pilot layihədə uğurlu olmadıqda layihə davam etdirilmir.
- Portuqaliya nümunəsində olduğu kimi, məktəblər xaricdən mütəxəssis dəstəyi alır. Bu dəstək sadəcə hazırlıq təlimləri ilə bitmir, tətbiqetmə prosesində müəllimlər özləri mütəxəssislərə çevrilir. Üstəlik, dəstək həm müəllimlərə, həm də tələbələrə yönəldilir.
- İlkin mərhələdə ailələr və daha geniş icma prosesə cəlb olunur. Bu layihə onu göstərir ki, məktəblər vakuumda işləmir və cəmiyyətin köməyi inklüziv təcrübənin daha da genişlənməsi üçün çox önəmli rol oynaya bilir.
- Layihədə nəticələrin daha geniş ictimaiyyətə təqdim edilməsi üçün ictimaiyyətin məlumatlandırılması mərhələsi də var.

### *1.3 Daha az və daha çox səmərəli məktəblərlə iş*

Əksər inklüziv təhsil layihələri müəyyən bir ərazi yaxud rayonda yerləşən məktəblərli deyil, seçilmiş məktəbləri əhatə edir. Ölkələrin əksəriyyətində belə bir fikir mövcuddur ki, ancaq uğur vəd edən məktəbləri layihəyə cəlb etmək lazımdır. Məktəblərin seçilməsi mərhələsində səhvlər etmək mümkündür. Amma təcrübə ilə qazanılmş bir neçə xarakterik xüsusiyyət var ki, axtarış mərhələsində faydalı ola bilir:

- məktəb rəhbərliyi layihəni dəstəkləyir, məktəbi və müəllim kollektivini effektiv idarə edə bilir
- məktəbin fəaliyyəti üçün məsul olan yerli idarəetmə orqanları layihəni dəstəkləyir;
- müəllim kontingentinin say tərkibi nisbi stabildir ki, bu da layihənin icrası müddətində təcrübə qazanmağa imkan verir
- müəllimlər arasında bir-biri ilə əməkdaşlığa həvəs yaradan yaxşı münasibət var;
- məktəb qarşılıqlı əməkdaşlıq və təlimlərdə iştiraka vaxt ayırmağa maraqlıdır və qadirdir

- məktəb təcrübəni mənimsəməyə həvəs göstərir və yeni ideyalara açıqdır

Əlbəttə ki, nəzərə alınmalı olanlar sadəcə bu amillərlə bitmir. Məsələn, cəmiyyətin yüksək səviyyədə dəstəyi də amil kimi çıxış edə bilər ki, bunun olmaması məktəblərə ciddi təzyiq vasitəsidir (məsələn resurslar az olduqda və ya çətin sosial mühit olduqda). Bununla yanaşı, layihəni başlamaq üçün ideal şəraiti gözləməyə ehtiyac yoxdur. Bunun üçün iki əsas səbəb var:

- Layihə başlayanda ideal şərtlər də ola bilər, lakin layihənin uğurlu hesab olunması üçün ideal olmayan şərtlərdə də tətbiq olunması və genişləndirilməsi lazımdır. Məhdud inklüziv layihələr fərdi qaydada daha inklüziv məktəblər yarada bilər, amma inklüziv təhsil *sistemi* yarada bilmir. Bu, ancaq ən səmərəsiz və istəksiz məktəblər layihə cəlb olunanda üzə çıxır.
- Məktəblər monolit institutlar deyil. Rəhbər heyət layihəyə dəstək versə belə, bəzi hallarda dəstək verməyən müəllimlər ola bilər. Yəni şərtlər layihənin xeyrinə olsa da, həmişə inklüziv təhsil üçün bəzi əngəllər mövcud olur.

Buna görə də, bütün layihələrin çətinliklər və əlverişsiz şəraitlər nəzərə alınaraq planlaşdırılması vacibdir. Bu, o deməkdir ki, layihələr məktəbləri tədricən daha inklüziv etməyə yönəlməlidir. Bunu necə etmələri növbəti hissədə göstəriləcək.

## 2. Məktəblərin dəyişməsi

Məktəbin idarəetmə təcrübəsində iştirakçılıq, əməkdaşlıq və inklüziya prinsipləri azlıq təşkil etdikdə məktəbin inklüzivliyini artırmaq cəhdləri mövcud dəyərlər və düşüncə tərzi ilə toqquşaraq çətinliklər törədə və qarışıqlıq yarada bilər. Məktəbdəki əsas şəxslər daha inklüziv olmağa qərar verərsə, ehtiyatlı idarəetmə ilə bu toqquşmalar azaldıla və yeni mədəniyyətlər və təcrübələr daha asan mənimsənilə bilər. Bununla birlikdə, layihələrdə nəzərə alınmalıdır ki, hətta bu şəraitdə belə daha inklüziv olmaq uzunmüddətli bir prosesdir və məktəblərin bu müddət ərzində davamlı dəstəyə ehtiyacı var.

Layihələrdə məktəblərə kömək etmək üçün xüsusi strategiyalar olmalıdır. Cənubi Amerika və Karib bölgəsindəki bəzi inklüziv təhsil layihələrinin təcrübəsində bir sıra belə strategiyalar müəyyənləşdirilmişdir:

✓ Bu regionda səmərəli inklüziya layihələri aşağıdakı startegiyalardan istifadə etmişdi:

- *Müəllimləri şagirdləri öyrənən bir qrup kimi müşahidə etməyə həvəsləndirmək.* Bu, müəllimlərə yalnız "əlillik" yaxud "fərqlilik"

görmədən müəyyən bir şagirdin effektiv şəkildə öyrədilə biləcəyi xüsusi yollara keçməsinə kömək edir.

- *Mövcud təcrübənin tənqidi təhlilini təşviq etmək.* Şagirdlər haqqında əldə etdikləri məlumatlar fonunda öz təcrübələrini tənqidi təhlil etmək üçün müəllimlərə dəstək vermək (yaxud onların bir-birinə dəstək verməsini təşviq etmək).
- *Müəllimləri praktiki məlumat və ideyalarla təmin etmək.* Bu strategiya məktəbdə dəstək xidmətinin şagirdlərə deyil, müəllimlərə yönəlməsini nəzərdə tutan dəyişikliyi ehtiva edir.
- *Müəllimlərə geniş müstəqillik vermək.* Müəllimlər nəyi, necə və hansı mənbələrdən öyrədəcəkləri ilə bağlı özləri qərar qəbul etsin. Şagirdlərin müxtəlifliyinə müvafiq fərqli metodlar inkişaf etdirməyinə şəraitin yaradılması.
- *Diqqətin bəzi şagirdlərdən bütün şagirdlərə doğru genişləndirilməsi.* Müəllimlər inklüziv təhsili sadəcə müəyyən bir qrup şagirdin təlim mühitinə "daxil edilməsi" yaxud "inteqrasiyası" hesab etdikdə həmin şagirdlərlə digər şagirdlər arasında balans saxlamaq ehtiyacı hiss edirlər. Buna görə də onlara inklüzivliyin bütün şagirdlər üçün təhsilin keyfiyyətinin artırılması ideyası olması təlqin olunmalıdır.
- *Valideynlərlə işləmək.* Məktəblər valideynlərin reaksiyalarına qarşı həssas olmalıdırlar. Buna görə də inklüziv təcrübələrin inkişafı üçün məktəbdə və məktəbdən xaricdə də valideynlərlə davamlı iş aparılmalıdır.

Bu strategiyaların bəzilərini yuxarıda göstərilən layihələrdə də görmək mümkündür. Xüsusilə, Portuqaliyadakı  inklüziya layihəsinin dolğun qiymətləndirilməsi apaılmışdır ki, onun təcrübəsindən mümkün qədər çox öyrənmək mümkün olsun. Qiymətləndirmə, məktəbləri dəyişdirmə bilmək üçün vacib olan bəzi digər strategiyaları müəyyən etmişdir:

✓ Portuqaliya təcrübəsində layihənin uğuru aşağıdakılardan asılı idi:

- *məktəblə birlikdə işləyərək sistematik olaraq dəyişikliklərin həyata keçirilməsi*. Bu, tədris planı, şagirdlər, ailələr, icma, təşkilati təcrübələr, müəllimlər və qiymətləndirmə ilə eyni vaxtda işləmək və bu elementlərin bir-biri ilə necə əlaqəli olduğunu başa düşmək deməkdir. İnklüziv təhsili praktikada bir neçə şagird üçün *sadəcə* kiçik dəyişikliklər etmək kimi görmək olmaz.
- *məktəbdə dəyişiklik yaratmaq üçün geniş təşəbbüslərdən istifadə*. Məktəb muxtariyyəti və idarəetməsi haqqında yeni qanun və kurikulumun çevikliyini təmin etmək üçün hökumətin qərarı xüsusilə vacib idi. Ümumiyyətlə, inklüziya layihəsi başlanan dəyişikliklərin bünövrəsi üzərində qurulması üçün həm xarici, həm də məktəb daxilində

təşəbbüslərlə əlaqəli idi. Bu, inklüziv təhsili məktəblərə əlavə yük kimi görülməsinin qarşısını alırdı.

- *məktəblərlə uzunmüddətli iş*. Başlanğıcda təlim və maarifləndirmə vacib idi, amma yetərli deyildi. Layihənin mənimsənilməsi üçün məktəblərə uzunmüddətli dəstək lazım idi. Bu, xüsusən də yerli təlim mərkəzlərinin müəllimlər, baş müəllimlər və digər təhsil mütəxəssisləri üçün uzunmüddətli, təcrübə əsaslı təlim proqramlarına cəlb edilməsini nəzərdə tuturdu. Həmçinin bu, yerli idarəetmənin də uzunmüddətli dəstəyə cəlb edilməsi demək idi.
- *müəllimlərin əməkdaşlığa təşviq olunması*. Problemlərin birgə həlli (bu nümunədə YUNESKO Müəllim Hazırlığı üzrə Resurs Dəsti tərəfindən təmin edilir) müəllimlərin bacarıqlarını artırmaq və məktəblərdəki dəyişikliklər üçün, yəni layihənin daha uzun müddət davam etməsi üçün olduqca əhəmiyyətlidir. Problemlərin birgə həlli və vaxtında müdaxilə müxtəlif məktəblərdə uğur qazanmanın əsas amili oldu.

Bu təcrübələri bir araya gətirərək, məktəblərdə inklüziv təhsildə dəyişiklik etmək üçün bəzi əsas prinsipləri müəyyən etmək olar:

- Müəllimlərin mövcud təcrübələrini şagirdlərin ehtiyacları fonunda təhlil etməsi vacibdir. Bunu qarşılıqlı dəstək və birgə problem həllində iştirakla etmək mümkündür. Bu bir çox hallarda səmərəli fəaliyyət-tədqiqat proseslərinə səbəb ola bilər.
- Müəllimlərin öz problemlərini həll etmək üçün imkanları olmalıdır, eyni zamanda məlumat və məsləhət almaq üçün mütəxəssislərə müraciət etməyi bacarmalıdırlar. Bu mütəxəssislərin məktəblə sıx əlaqəli olması və birbaşa işçi heyəti ilə işləməsi lazımdır.
- Müəllimlərin təcrübəsində dəyişikliklər tədris planının idarə edilməsində və təşkilindəki dəyişikliklərin bir hissəsi olmalıdır ki, digər amillər tərəfindən də dəstəklənsin. Mümkün qədər, inklüzivliyə doğru addımların məktəblərin cəlb olunduğu digər xarici və daxili təşəbbüslərin bir hissəsi kimi görmək lazımdır.
- Məktəb icması, yerli idarəetmə də daxil omaqla dəyişikliklərin dəstəkçisi olmalıdır.
- Bu dəyişikliklər prosesi uzunmüddətlidir və davamlı dəstəyə ehtiyacı var. Bu dəstək məktəblərdə qaçılmaz çətinliklərin həllinə ümid yaratmalıdır.

## 3. Məktəb şəbəkələri və əməkdaşlıq

İnklüziv təhsil layihələri əksər hallarda ya tək çalışan ya da layihə qrupu ilə işləyən məktəbləri əhatə edir. Bu şəkildə çox yaxşı iş görülsə də məktəblərin bir-birini dəstəkləyərək şəbəkə kimi fəaliyyətini məhdudlaşdırır. Məktəblər birlikdə işlədikdə nələrə nail ola bilərlər:

- təcrübələri paylaşmaq və ixtisaslaşmaq

- birgə siyasətin və təcrübələrin inkişafı
- rəqabətin və şəxsi mənfəətin öz yerini şəbəkədə mövcud resursların bölüşdürülməsinə verməsi
- bütövlükdə şəbəkə üçün bir mənbəyə çevrilən mütəxəssisləri və ümumilikdə ixtisaslaşmanı inkişaf etdirmək
- müxtəlif şagird ehtiyaclarına daha asanlıqla cavab verə biləcək mühit yaratmaq

✓ Niderland ənənəvi olaraq yüksək dərəcədə təcrid olunmuş təhsil sisteminə sahib idi. Xüsusi təhsil 1980-90-cı illərdə sürətlə inkişaf etdi. İnklüziv təcrübəni daha yüksək səviyyədə inkişaf etdirmək üçün hökumət son illərdə ümumtəhsil (ibtidai) və xüsusi məktəblərdən "qrupların" yaradılmasını təşviq edən "Birlikdə Yenidən Məktəbə" layihəsini tətbiq etdi. Hər bir qrup xüsusi təhsil ehtiyacı olan və olmayan 2000-ə yaxın şagird üçün nəzərdə tutulmuşdu və bu şagirdlərin ehtiyaclarını ödəmək üçün maliyyə dəstəyi ayrılmışdır. Hər bir qrup bu maliyyədən şagirdlərini xüsusi məktəbə yerləşdirmək və ya adi məktəblərdə saxlamaq üçün istifadə edib-etməmək barədə qərar verməlidir. Gözlənti məktəblərin təcrübə və resursları bölüşməyə başlaması və adi məktəblərin şagirdləri (və buna görə də maliyyəni) xüsusi məktəblərə göndərmək əvəzinə özündə saxlamasına istiqamətlənmişdir.

Bu nümunədə məktəb şəbəkələrinin yaradılması inklüzivliyi artırma ehtimalını yaratdı. Şəbəkələrə inklüziv təcrübələri inkişaf etdirmək üçün maliyyə, ixtisaslaşmış kadrlar və hər şəraitə rahat uyğunlaşa bilməsi üçün sərbəstlik verilmişdir. Bununla birlikdə, əlverişli bir kontekst yaratmaq özlüyündə inklüziv təcrübənin təmin olunacağına zəmanət vermir. Bunun üçün mərkəzi güclər tərəfindən təcrid olunmanın azaldılması və ya müvafiq peşə və təşkilati işlərin inkişafı üçün dəstək lazımdır.

Hollandiya nümunəsində ilkin mərhələlərdə müvafiq əməkdaşlığın uğurlu ola biləcəyi təsvir olunmuşdur. Adətən ölkələr bu mərhələdə ikili sistemə meylli olurlar: xüsusi və ümumtəhsil məktəblərinin birgə mövcudluğu. Amma bunlar uzun müddət ayrı qalsa, ümumtəhsil məktəbləri şagirdlərin müxtəlifliyinə uyğunlaşmaqda çətinlik yaşayır və şagirdləri xüsusi məktəblərə yerləşdirməyə meyilli olurlar.

İnkişaf üçün yeganə yol xüsusi və adi məktəblərin birgə işləməsidir. Bu, təcrübələri paylaşmağa və xüsusi təhsil mifini dağıtmağa kömək edir. Bu halda ümumtəhsil məktəblərində müəllimlər xüsusi təhsil texnikaları ilə və xüsusi məktəblərdə yerləşdirilmiş şagirdlərlə tanış olma şansı əldə edirlər. Həmçinin xüsusi təhsil məktəblərindəki müəllimlər də öz növbəsində ümumtəhsil məktəbləri haqqında öyrənir və öz təcrübələrini fərqli kontekslərdə tətbiq edə bilməyə uyğunlaşırlar.

✓ İspaniyanın Kataloniya vilayətində ümumtəhsil məktəbləri ilə xüsusi məktəblərin əməkdaşlığı 1989-90-cı illərdən başlayıb. Bu təcrübənin ilk iştirakçıları hər iki məktəbdəki azyaşlı (5 yaşında) şagirdlər olub. Onlar səhərlər oyun vaxtını birgə keçirirdilər. Bu ilk tanışlıqdan sonra müəllimlər uşaqları başqa fəaliyyətlər və digər yaş qrupundan olan şagirdlərlə də tanış edirdilər. Bu təcrübə indiyə qədər davam edir. Hər iki növ məktəbdəki şagirdlər əksər fəaliyyətləri birgə icra edir və erkən yaşlarda ibtidai təhsil dövründə bərabər iştirak edirlər. Bu əməkdaşlıq məktəblər arasında tədris planı haqqında məlumatları bir-biri ilə mübadilə etməyə şərait yaradır. Bu, həm də müəllimlərə fərqliliklərə qarşı yanaşmalarda birgə düşünməyə imkan verir. Onlar inanır ki, müxtəlifliyə uyğunlaşmaq üçün inklüziv əsaslarla "Hər kəs üçün məktəb" anlayışı inkişaf etdirilməlidir. Onların fikrincə, *bütün* şagirdlərin təhsilə çıxışını təmin etmək üçün təşkilati və metodiki dəyişikliklər tələb olunur.

Xüsusi və ümumtəhsil məktəblərinin əməkdaşlığı müəllimlər üçün böyük sınaqdır. Bu nümundə göstərildiyi kimi, bu sadəcə fiziki olaraq bərabər mühiti paylaşmaqdan və birgə fəaliyyət göstərən qrupların inkişafından ibarət deyil. Əməkdaşlıq ümumi məqsədləri müəyyənləşdirməyə və güclənmək üçün çalışmağa yönəlib. Kataloniya nümunəsində bu mənada bir sıra amillər faydalı ola bilər:

- labüd çətinliklərə baxmayaraq baş menecerlərin qətiyyəti və, layihəyə müsbət münasibəti
- iclasların və iştirakçıların inzibati yükünü azaldan səmərəli təşkilatlanma
- iştirak edən məktəblər arasında fiziki yaxınlıq
- əməkdaşlığın həm xüsusi, həm də ümumtəhsil işçiləri üçün qorxulu görünə biləcəyini açıq qəbul etmək və bu məsələni tam müzakirə etməyə hazır olmaq
- ailələrin ilkin mərhələdən cəlb edilməsi və onların görüş və narahatlıqlarını dinləməyə maraqlı olmaq
- iştirakçı məktəblərin müəllimlərini və digər işçilərini cəlb etmək
- iştirakçı olmayan məktəbdən nümayəndəsi (bu, təhsil psixoloqu və ya yerli dəstək qrupundan kimsə ola bilər)
- layihə boyu planlaşdırma və fəaliyyətlərin qiymətləndirilməsi

## 4. Bəzi ümumi səhvlər

İnklüziv təhsilin inkişafında məktəblərlə işləmək mürəkkəb işdir. Əksər hallarda uğurlu olmasına baxmayaraq, bəzən səhvlər də buraxılır. Digərlərinin öz təcrübələrində ən çox başverən səhvlərdən yayınması üçün onları sadalayırıq:

- layihə işçiləri adətən müəllimlərə praktiki məsləhətlər verməyə və strategiyalar təklif etməyə maraqlı olurlar. Onlar üçün planlaşdırma və öyrətmədə fərdi yanaşmaya daha çox üstünlük verilmək asandır. Başlanğıcda müəllimlər bunu

qəbul etsələr də böyük siniflərdə bunu idarə etmək çətinləşir və nəticədə bəzi uşaqların yaşıdlarından və tədris planından kənarda qalmasına gətirib çıxara bilər.

- istənilən dəyişiklik müəllimlər üçün əlavə stres və əmək deməkdir. Bəzən, bu faktorlar həddindən artıq çox görünür və müəllimlər özlərini yüklənmiş hiss edirlər. Bu da təklif edilən dəyişikliklərdən imtina ilə nəticələnə bilər.
- layihə əlilliyi və ya hər hansı bir çətinliyi olan şagirdlərin ümumtəhsil məktəblərinə daxil edilməsi haqqındadırsa, çevik tədris yanaşmaları hazırlamaq üçün məktəb və müəllimlə işləmək daha məqsədəuyğun olduğu halda, layihə işçiləri onları uyğun olmayan siniflərdə yerləşdirməyə cəhd edə bilərlər.
- layihənin uğurlu olması üçün layihəyə cəlb olunmuş məktəb və müəllimlər üçün müvafiq şərait yaradılmalıdır. Bəzi hallarda məktəb üçün əlavə vəsait, müəllimlər üçün əlavə ödəniş etmək mümkün olur. Amma bu heç də ölkənin qalan hissəsində də layihənin bu şərtlər daxilində inkişaf edəcəyi demək deyil. Bəzi yerlərdə dərslərin keçirilməsi çətin ola bilər və bu çətinliklər müəllimlər və məktəblər təşviq edilmədiyi halda imtinalara səbəb ola bilər.
- layihə bəzən məktəb və müəllimlər üçün mütəxəsissləri əlçatan edir. Amma bu məsələni yaxşı tənzimləmədikdə həmin mütəxəssislərə həddindən artıq asılılıq yarana və mütəxəssis təmin etmək mümkün olmadıqda layihənin dağılmasına belə gətirib çıxara bilər. Əlbəttə ki, mütəxəssislərin bu məsələdə xüsusi rolu var, amma əsas olan ümumtəhsil məktəblərinin və ordakı müəllimlərin bacarıqlarını artırmağa çalışmaqdır, onları məsuliyyətdən uzaq tutmaq yox.

## NƏTİCƏ VƏ SUALLAR

Bu bölmədə inklüziv təhsilə doğru dəyişmə nöqtəsi olaraq məktəbə nəzər saldıq. Xüsusilə, məktəblərin inklüziv layihələrə cəlb olunmasının yollarını müəyyən etdik. Bir çox hallarda inklüziv təcrübələrin inkişafı belə layihələrdən kənarda baş verir və istənilən halda layihələr təkbaşına təkmilləşmiş inklüziv təhsl sistemi yarada bilmir. Buna görə idarəçilər və qərar qəbul edənlər, sistemin daha əhatəli bir formaya keçməsi üçün sistemdə mümkün olan bütün digər fürsətləri nəzərdən keçirməlidir.

Bununla belə, məktəblərin layihələrə birbaşa cəlb edilməsi siyasət ritorikasını və yenidən qurulmuş təhsil sistemlərinin təklif etdiyi imkanları reallığa çevirməyin güclü yoludur. Layihələr, əlavə olaraq təhsil sisteminin qalan hissəsinə inklüziv təhsilin burada və indi mümkün olan bir şey olduğunu nümayiş etdirmək üçün xüsusilə güclü ola bilər.

Məktəblərin birbaşa cəlb edilməsinin təsirini maksimum dərəcədə artırmaq üçün idarəçilər və qərar qəbul edənlərin aşağıdakı sualları nəzərdən keçirməyi arzuolunandır:

- Məktəblərin öz təşəbbüsü ilə öz təcrübələrindən yararlanaraq inklüziv layihələr yaratması üçün hansı imkanları var?
- Əgər layihə məktəbdən kənar təşəbbüsdürsə, hansı məktəblərlə işləmək daha uyğundur: qabaqcıl yoxsa zəif məktəblərlə? Bu məktəblər necə müəyyən olunur?

- Məktəblərin qabaqcıl yoxsa zəif olmasından asılı olmayaraq qaçılmaz çətinliklərin öhdəsindən gəlmək üçün hansı formada dəstək təklif olunur? Əgər varsa, bu, uzunmüddətlidirmi, ailələri və icmanı əhatə edirmi, bütünlükdə məktəbin və müəllimlərin öz təcrübələrini yoxlamasına kömək edirmi?
- Layihədə məktəblər arasında əməkdaşlığa təşviq üçün hansı imkanlar mövcuddur? Məktəb şəbəkələrinin qurulduğu yerlərdə məktəblərin daha çox inklüziv olma istiqamətində hərəkət etmələrini təmin etmək üçün başqa həvəsləndirmə və dəstək formaları təklif edilirmi?
- Ümumtəhsil və xüsusi məktəblərin əməkdaşlığı hansı imkanları yaradır? Belə əməkdaşlıqda müəllimlərin qarşılaşa biləcəyi problemlərdə necə dəstək verilir?
- Hal-hazırda təhsildə dəyişikliyə təşviq etmək üçün hansı imkanlar möcuddur (islahatar, əsaslı dəyişikliklər və ya uyğunlaşma proqramları, daha inklüziv təhsil üçün qanunvericilik təşəbbüsləri)?
- Bu imkanlardan məktəblilər və müəllimlərin tam yararlanması üçün necə istifadə etmək olar?

# İSTİFADƏ OLUNAN İSTİNADLAR, MƏNBƏLƏR VƏ VEB SƏHİFƏLƏR

Bu, inklüziv təhsil haqqında mənbələrin tam kataloqu demək deyil. Sadəcə bu materialın hazırlanmasında faydalı olan mənbələrin siyahısıdır. Hər hansı bir mənbənin etibarlılığı burdakı siyahı ilə ölçülmür.

**İstinadlar və mənbələrin siyahısı**


Baez, M. (1999) Developing inclusive education in Chile, In Daniels, H. ST Garner, I? (Eds.) World Yearbookof Education 1999: Inclusive Education (London, Kogan Page)

Booth, T., Ainscow, M., Black-Hawkins, K., Vaughan, M. & Shaw, L. (2000) Index for Inclusion: Developing learning and participation in schools (Bristol, CSIE).

Delors, J. (Chairman). (1996) Learning: The treasurewithin. Report to UNESCOof the International Commission on Education for the Twenty-first Century (Paris, UNESCO.

Engelbrecht, P., Green, L., Naicker, S. & Engelbrecht, L. (1999) Inclusive Education in Action in South Africa (Pretoria, J.L. van Schaik).

Inter-Agency Commission, W.C.E.F.A. (1990) Final Report. World Conferenceon Education for All: Meeting basic learning needs.5-9 March 1990, Jomtien, Thailand (New York, Inter-Agency Commission for the World Conference on Education for All).

Mitchell, D. (1998)Re-forming SpecialEducation: A New Zealand PerspectiveLecture presented at Yokahama, Japan and elsewhere.

Pijl, S.J.& Meijer, C.J.W. (1999) The Netherlands: supporting integration, In Daniels, H. & Garner, P. (Eds.) World Yearbookof Education 1999: Inclusive Education (London, Kogan Page).

Pijl, S.J., Meijer, C. J. W., & Hegarty, S. (Eds.) (1997) Inclusive Education: A Global Agenda (London: Routledge).

Slavin, R.E., Madden, N.A., Dolan, L.J. & Wasik, B.A. (1996) Every Child, Every School: Successfor al2 (Newbury Park, CA, Corwin.

Teferra, T. et al. (1996) Mediational intervention for sensitizing caregivers, in: Pinina Klein (Ed.) Early Intervention: cross-cultural experienceswith mediational approach (New York, Garland Publishing Inc.).

UNESCO (1993) TeacherEducation ResourcePack: SpecialNeeds in the Classroom (Paris, UNESCO).

UNESCO (1994) Final Report: World conferenceon special needseducation: Accessand quality (Paris, UNESCO).

UNESCO (1995) Review of the PresentSituation in SpecialEducation (Paris, UNESCO).

UNESCO (1999) Salamanca Five YearsOn. A Review of UNESCOActivities in the Light of the Salamanca Statement and Framework for Action. Adopted at the World Conferenceon SpecialNeedsEducation: Accessand Quality (Paris, UNESCO).

UNESCO (2000) One SchooZfor All Children. EFA 2000 Bulletin. United Nations (1989) Convention on the Rights of the ChiZd.Adopted and opened for signature, ratification and accession by General Assembly resolution 44/25 of 20 November 1989, entry into force 2 September 1990, in accordance with article 49.

United Nations (1993) United Nations Standard Rules on the Equalization of Opportunities for Personswith Disabilities (A/C.3/48/L.3, 1 October 1993). New York: United Nations.

World Education Forum (2000) The Dakar Framework for Action. Education for All: Meeting our Collective Commitments. Text adopted by the World Education Forum, Dakar, Senegal, 26-28 April 2000.

**Veb səhifələr**

- İnklüziv Təhsil üzrə Tədqiqatlar Mərkəzi (İTTM)
  http://www.inclusion.uwe.ac.uk
- Təhsil üçün Şəraitin Yaradılması Şəbəkəsi (EENET)
  http://www.eenet.org.uk
- Xüsusi Təhsilin İnkişafı üzrə Avropa Agentliyi
  http://www.european-agency.org/
- Avropa Birliyinin İkinci Şans Məktəbləri:
  http://www.e2c-europe.org
- Beynəlxalq Əmək Təşkilatı (BƏT)
  http://www.ilo.org
- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT)
  http://www.oecd.org/els/education/
- YUNESKO
  http://www.unesco.org/education
- YUNESKO/İnklüziv Təhsil
  http://www.unesco.org/education/sne
- YUNİSEF
  http://www.unicef.org
- Dünya Bankı

http://www.worldbank.org/

- Dünya Səhiyyə Təşkilatı (DST)
  http://www.who.int/home-page/

Bir çox hökumətlərin inklüziv təhsil siyasətləri üzrə məlumatları təmin etdikləri veb səhifələri var. Hökümətlərin saytlarını ziyarət etməyin ən asan yolu aşağıda veb səhifədən istifadə etməkdir.
'Şəbəkədəki hökumətlər'
http://www.gksoft.com/govt/en/